AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 24.02.2016 |
| Qeydiyyat nömrəsi | 100/02/001 |
| Adı | “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kollegiyasının 2013-cü il 17 oktyabr tarixli 100/02/001 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində informasiya azadlığı ilə bağlı daxili icraat Qaydaları”nda dəyişiklik edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 04.03.2016 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 360.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201602240001 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 03.03.2016 |

“İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1398-IVQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikasının Prezidentinin 1 noyabr 2015-ci il tarixli 1504 nömrəli Sərəncamının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kollegiyası Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli, 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə”nin 5.11.6-ci yarımbəndini rəhbər tutaraq

**QƏRARA ALIR:**

1 . “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində informasiya azadlığı ilə bağlı daxili icraat Qaydaları”nın 1.2-ci bəndində “qərəzsizliyinin” sözündən sonra “, cinayət işləri üzrə ibtidai araşdırmanın normal gedişinin” sözləri əlavə edilsin.

2. Hüquq şöbəsi (Sənan Muxtarov) bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**Kollegiyanın sədri** **Aydın Əliyev**